

Nizami Tağısoy

# "Baş" romanında milli çalar və yerli kolorit

Elçinin "Baş" romanı öz etnik-etnoqrafik-milli çalar və naxışları ilə diqqəti cəlb edən əsərdir. Roman, əslində, bir canişinin həyat faciəsinə və Bakı xanlığının işğalının təfərrüatlarına həsr olunsa da, onun mətnində Azərbaycan xalqının tarixi-ənənəvi keçmişi, milli həyatı, insanların halı, xarakterik cizgiləri öz əksini tapmışdır. Bu onu göstərir ki, Elçin yaradıcılığı üçün həm də tarixi və mənəvi mədəniyyətimizin xüsusiyyətləri böyük önəm daşımaqdadır. Əsəri oxuduqca, Elçin istedadlı nasir olması ilə yanaşı, həm də müşahidəli etnoqraf təsiri bağışlayır. Çünki müəllif əsəri hansı üslubda, hansı tərzdə yazıb ortaya qoymasından asılı olmayaraq, özünün hansı xalqa və ədəbiyyata mənsubluğunu dərindən nümayiş və sübut etdirməkdədir. Əsərdə mənəvi mədəniyyətimizin atributları kimi Azərbaycan xanlıqlarının özünəxas həyatı, həyat şəraiti əks olunmaqla, məişət mənzərələri çeşidli boyalarla təqdim olunmaqdadır. Əsərdəki detallar romanın ilk sətirlərindən mətnə ustalıqla daxil edilmişdir.

Elçinin "Baş" romanında milli koloritin zahiri əlamətləri ilə bu koloritin zahiri spesifikası dil ünsürləri ilə bağlı olmaqla özünü milli varlığın mahiyyətində dayanmaqla əks etdirməkdədir. Bu isə, şübhəsiz ki, Elçinin milli dil stixiyasından uğurla yararlana bilməsi ilə əlaqədardır. Bədii əsərlərdə milli koloritin ustalıqla yaradılması müəllifin milli düşüncəyə dərindən bağlı olduğu təqdirdə baş verə bilir. "Baş" romanında təsvirini tapan mənzərələr ən azı 200 il bundan öncə olan hadisələri əks etdirməkdədir. Və burada əsərdəki hadisələrlə müasir dil arasındakı zaman fərqi də nəzərdən qaçırılmamalıdır. Dil canlı orqanizm olduğundan XVIII əsrin sonu XIX əsrin əvvəllərindən indiyə qədər böyük inkişaf yolu keçmiş, xeyli transformasiyalara uğramış, leksik, semantik çalarlarla zənginləşmişdir. Lakin belə vəziyyət oxucunu həmin tarixi mərhələyə, təsvir olunan zamanın xarakterik xüsusiyyətlərinə, ənənələrinə bələd etmək o qədər də çətin olmamışdır.

Məlum olduğu kimi, hər bir xalqın özünəməxsus davranış və hərəkətlərində əks olunan xüsusiyyətlər vardır ki, məhz bu da bir xalqı digərlərindən fərqləndirir. Elçin bütün bunlardan yaxşı xəbərdardır. Elə buna görə də müəllif milli xarakterik ilmələrdən istifadə etməklə onlardan qəhrəmanların simasında, replikasında, müraciət formalarında və s. uğurla yararlanır.

Elçinə öz fərdi təsvir manerası xasdır. O, öz arsenalında olan bədii-ifadə vasitələrindən istifadə etməklə sırf fərdi təsvir üslubunu yaradır və elə bunun özü də əsərdə milliliyin hər hansı bir əlaməti kimi çıxış edir. "Baş" romanı polifonik əsər olduğundan burada personajların nitqinin verilməsi də maraqlıdır. Əsərdə yer almış qəhrəmanların nitqindəki hər bir detalda özünəməxsus kolorit mövcuddur. Bu nitq hər bir personajın temperamentinin, iç dünyasının, mənəvi aləminin xarakterik cizgilərinin yaradılması üçün edilir və eyni zamanda bu da "Baş" romanının obrazlı strukturunun yaradılması ilə bərabər əsəri milli keyfiyyətlərlə daha da zənginləşdirir. Personajların nitqinin öz fərdiliyi ilə seçilməsini biz Hüseynqulu xanın, Dilmanc Şərif bəyin, Mahmud bəyin, Molla Müzəffər Ağanın, Abbas Mirzənin, Ağabəyim Ağanın və başqalarının timsalında yetərincə müşahidə edirik.

Romanda həm Dilmanc Şərif bəyin, həm də Mahmud bəyin nitqi öz fərdi xarakteri ilə bir-birindən diametral halda seçilir. Burada hər bir nitq aktı bütün psixi formaların (duyğu, qavrayış, hiss, təsəvvür, təfəkkür, emosiya, milli heysiyyat və s.) təsirinə məruz qalır, onların hər biri Bakının işğalı məsələsinə öz maraqları və dünyagörüşləri səviyyəsindən baxır. Əsərin həm bu, həm də digər yerlərində ortaya çıxan dialoqlarda məsələyə, vəziyyətə hərənin öz münasibəti sərgilənir. Yeri gəlmişkən "Baş" romanında həm də dialoqların kifayət qədər yer aldığından danışmaq olar. Nəsr əsərinin effektini artıran nitqin belə formasından geniş istifadə (eyni zamanda mükalimə zamanı nitqə əlavə edilən jestlər, mimikalar, əl-qol hərəkətləri və s. yararlanma) onun həm də müəyyən mənada dramaturji əsər kontekstinə keçirilməsi, səhnə əsəri üçün də yetərincə münasibliyini sübut etməkdədir. Elə buna görə də "Baş"ın saysız-hesabsız dramaturji elementlərlə zəngin olduğunu və səhnə müstəvisinə keçirilməsi üçün münbit quruluş sərgilədiyini də burada qeyd etməyə ehtiyac var. Söylədiklərimiz bir daha təsdiqləyir ki, "Baş" romanında personajların nitqi, boğulmamış, mətn obrazların xüsusiyyətlərinə nəzər salınmaqla ustalıqla yaradılmışdır. "Baş" romanında Elçinin bacarıqlı bir sənətkar kimi ustalığı, yuxarıda söylədiyimiz kimi obrazların nitq xarakteristikasında özünü daha aydın büruzə verir. Ənənədən gələnlər və qəhrəmanların dilinin fərdiləşdirilməsinin köməyi ilə Elçin onlardan hər birinin ideoloji mövqeyini və mənəvi simasını açır. Onun romanında personajlar öz milli xarakterini digər məqamlarla yanaşı, həm də öz nitqində nümayiş etdirirlər. Burada Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələri təqdim olunmuşlar. Onlardan hər birinə öz fərdi danışıq leksikası, müəyyən obrazlı nitq quruluşu, dialekt, şivə manerası xasdır.




Elçin XVIII əsrin sonu XIX əsrin əvvəllərində Azərbaycan mədəni - məişət həyatında olan yerli münasibətləri kifayət qədər incə detalları və təfsilatları ilə verə bilir ki, bunun da köməyi ilə dövrün koloriti bütün xüsusiyyətləri ilə göz önünə gətirilir.

Eyni zamanda Elçin əsərdə milli koloritin yaradılmasına tarixilik mövqeyindən də yanaşır. Müəllif bunu da bilir ki, milli forma daim dəyişməkdə, dinamikada, inkişafdadır. Bununla belə milli formada xalqın ölməz ruhu yaşayır ki, məhz onun köməyi ilə də oxucunun təfəkkürü zənginləşir. Bir daha söyləməyi zəruri hesab edirik ki, milli forma daxilində nitq koloriti mühüm faktorlardan biridir. Yeri gəlmişkən qeyd edək ki, "kolorit" əsasən rəssamlıqda işlənən termin olmasına baxmayaraq, o həm də bədii əsərin xarakterik xüsusiyyətlərini, mərhələnin, dövrün, məkanın və s. xarakterik cəhət və cizgiləri kimi çıxış edə bilir.

Əlbəttə, əsl sənətkar öz əsərində milli adət, etik norma, öz xalqının davranışını və nitq manerasını özündən asılı olmayaraq əks etdirməyə borcludur. Başqa sözlə desək, bu, yaradıcılığın mahiyyətində mütləq oturmalı olan mühüm detaldır. Yəqin məhz belə xüsusiyyətləri əks etdirdiyinə görə millilikə bağlı V.Q.Belinski aşağıdakıları yazırdı:,,... bədii əsərdə millilik xidmət yox, yaradıcılığın mühüm, zəruri məxsusluğu olmaqla şair tərəfindən olan hər hansı bir cəhdsiz ortaya çıxmalıdır... milli şair olmaq üçün, hər şeydən öncə dahi insan, öz milli ruhunun nümayəndəsi olmalısan". Deməli, doğrudan da milli sənətkar, hər şeydən öncə, dahi insan olmaqla, həm də öz milli ruhunun nümayəndəsi olmalıdır. Və Elçinin timsalında biz bu dəyərlərin nəinki təhlilə cəlb etdiyimiz romanında, həm də onun digər əsərlərində şahidi oluruq. Və bu, "Baş" romanının danılmaz emosional-estetik keyfiyyəti, müəllifin danılmaz üslub keyfiyyəti kimi nəzərdən keçirilməlidir. Tarixi kolorit yaratmaqla Elçin müxtəlif tarixi dövrlərə aid olan realiləri diqqət mərkəzinə çəkməklə, tarixi şəxsiyyətlər haqqında məlumatlar verməklə (bu da ayrıca təhlillər tələb edən məsələdir) təsvir olunan tarixi dövrün realist mənzərəsini yaratmağa nail ola bilmişdir. Məsələyə belə geniş və zəkalı kontekstdə baxış, fikrimizcə, digər mühüm məqamlarla yanaşı, həm də Elçinin mütəfəkkir yazıçı, istedadlı ədəbiyyatşünas-estet olması ilə əlaqədardır. Milli kolorit həm də Elçinin qəhrəmanlarının portretinin yaradılmasında bəlkə də birinci dərəcəli rol oynayır. Personajların zahiri əlamətləri, jestləri və mimikaları, geyimi, yaşadığı mühit və s. onlar haqqında kifayət qədər məlumatlar verməklə aydın mənzərə yaradır. Müəllif burada portret yaradarkən onun həm digər personajlar, həm də oxucu tərəfindən necə görünüb qəbul edilməsinə diqqət yetirir:

"Mahmud bəy Hüseynqulu xanın bacısıoğlu idi və xanın onu öz övladlarından da çox istəməsi yalnız sarayda yox, bütün xanlıqda heç kim üçün sirr deyildi. Güzəştə gedə bilən, birbaşalığa, müstəqimliyə yox, dolama yollara meyl edən, hiylə, hiylə-fəsaddan istifadə etməyi bacaran, vaxtı olanda şeir oxuyan Hüseynqulu xan yaşı artıq otuzu haqlamış, baxışlarından od yağan bu yaraşıqlı cavanda, bəlkə də özündə olmayan, ancaq ömrü boyu xiffətini çəkdiyi mərdliyi, qətiyyəti, dönməzliyi, igidliyi gördüyü üçün, ona məhəbbəti bu dərəcədə idi və Hüseynqulu xan tam əmin idi ki, bu satqın dünyada öz övladları da daxil olmaqla, xanlığın əyan əşrəfi arasında ona heç vaxt xəyanət etməyən bir adam vardısa ? əgər vardısa - o da Mahmud idi" (s. 10). Elçin gözümüz önündə əsərdəki iki aparıcı personajın Hüseynqulu xanın və Mahmud bəyin portretlərinin adekvat cizgilərini yarada bildiyindən, oxucu onlardan hər ikisinin kimliyi haqqında uyğun təsəvvürlər əldə edir.

Əlbəttə, əsil bədii sənət əsəri, yuxarıda qeyd etdiyimiz kimi, hər hansı müəyyən millətin xarakterik xüsusiyyətlərini özündə əks etdirməklə, dil, tarix, xalqın bütün mədəniyyəti, adət və ənənələri ilə şərtlənən xüsusiyyətləri daşımalıdır. Hələ rus xalq poeziyasının milli özünəməxsusluq keyfiyyətlərini təhlil edərkən əvvəlki səhifələrdə müraciət etdiyimiz, V.Q.Belinski milli xüsusiyyətsiz bədii yaradıcılığın olmasına inanmsızlığını ifadə etməklə qeyd etmişdi ki, "... əsər bədii cəhətdən nə qədər yüksək olarsa, o qədər də o milliliyi ilə fərqlənər". Bu xüsusiyyətləri Elçin yaradıcılığında (çünki "Baş" romanından başqa bu göstəriciləri biz müəllifin digər nəsr (hekayə, povest, roman) və dram əsərlərində (pyes, komediya, vodevil) kifayət qədər müşahidə etmişik.

Elçin "Baş" romanında konkret-tarixi mərhələdə baş vermiş olayları ortaya qoymaqla öz doğma xalqının estetik ideallarını mövqeyindən və öz istedadının imkanları daxilində Azərbaycan cəmiyyətinin (eləcə də gürcülərin) ağrı-acılarını dilə gətirir, cəmiyyətin mənəvi, sosial, siyasi həyatını, həyatda yaranan problemləri aşkarlayır. Bunu edərkən müəllif öz xalqının 200 il bundan əvvəl mövcud olan ruhi halına və psixoloji durumuna ekskurs edir. Dövrün koloritli mənzərəsini yaradır. Bütün bunlara yazıçı öz fərdi duyum tərzinin köməyi ilə, əsərin təhlili üçün doğru-dürüst tapdığı priyom və obrazlardan istifadə etməklə nail olur. Buradan görünür ki, milli qiyafə və forma xalq həyatının müxtəlif tərəflərinin bədii baxımdan yaradılma imkanı və üsuludur. A.Fadeyev sənətdə milli forma məsələsinə toxunarkən qeyd etmişdi ki, biz bu istilahı işlətdikdə, hər şeydən öncə, doğma dili nəzərdə tuturuq. Eyni zamanda bu, həm də hər bir xalq üçün yüz illər boyu özündə əks etdirdiyi xalq folklorudur ki, onun özünəməxsus ruh və nitq düzümünü nəzərdə tutur. Bu, milli klassik ədəbiyyatın ənənələri, xarakterin təkrarolunmaz milli düşüncə tərzi, psixoloji, emosional xüsusiyyətləridir ki, onların hamısı birlikdə milli sənətin təkrarolunmaz rəngini və qoxusunu yaradır. Türk xalqlarının, xüsusilə Azərbaycan ədəbiyyatının yaxın dostu, tanınmış ədəbiyyatşünas prof. P.Skoserev isə milli özünəməxsusluğa belə bir tərif vermişdir: "Milli spesifika, hər şeydən öncə, müəllifin özünün milli xarakterində ortaya çıxır... milli forma-bu, hər bir milli ədəbiyyatın bütün xüsusiyyətləridir ki, onlar tarixidir və az, ya çox sabit xarakterlidir... bu xüsusiyyətləri biz adətən milli ənənə adlandırırq... Milli formada aynada əks olunan kimi xalqın bütün keçmişi əksini tapır-onun məişəti, onun tarixi, onun rəğbət və nifrətləri, ona xas olan assosiasiyalar sistemi əks olunur. Biz "milli forma" dedikdə, yaxud "milli özünəməxsusluq" "milli çalar", "yerli kolorit" işlətdikdə, bu termin altında milli dil, sosial psixologiyanın spesifik xüsusiyyətləri, millətin həyat və məişət xüsusiyyətləri, onun mədəniyyəti, realiyaları və s. başa düşürük ki, burada hər bir xalqa xas olan milli spesifika göz önünə gəlir. Və "Baş" romanını oxuduqda sadaladığımız bütün bu milli xüsusiyyətlərin təhlil etdiyimiz əsərin mətnində mühüm yer aldığını görürük.

Qeyd etmək istəyirik ki, bədiiliyin mühüm komponenti olan milli özünəməxsusluq romanda qətiyyən zəifləmiş, məişət koloriti müasirləşdirilməmiş, trafaretləşdirilməmiş, tarixi mərhələnin məişət atributları və keyfiyyətləri zədələnməmiş, bədiilik üçün mühüm ola biləcək nə varsa, onların hamısı qorunub saxlanılmış, təsvir edilənlər tarixi xronika və konstatasiyalar şəklində verilməmişdir. Buna görə bu gün də bəzən tarixi roman janrında işləməyə səy göstərən bir sıra yazıçılar üçün Elçinin "Baş" romanı örnək olaraq xidmət edəcəyi ilə bağlı ümidləri közərtməkdədir. "Baş" tarixi roman janrının ən mühüm keyfiyyətlərini nümayiş etdirmək baxımından da uğurlu və orijinal əsər hesab oluna bilər.